

İsmayıl İlməzli

# "Mən ellər Aşığı Xan Kamandaram"

## Aşıq Kamandarın şeir yaradıcılığı barədə düşüncələr

Bu yazımda, aşıq-ozan sənətində öz əbədiyyət heykəlini ucaldıb, ümumtürk aşıq-ozan sənətinin fatehlərindən olan Xan Kamandarın şeir yaradıcılığı haqqında mülahizələrimi oxucularla bölüşmək fikrindəyəm.

Aşıq Kamandar "Borçalı laylası" ( Bakı. Yazıçı. 1989), "Bənövşə" ( Bakı - "Nurlan" - 2004), "Mən ellər Aşığı Xan Kamandaram" ( Bakı - 2008) kimi üç kitab müəllifidir. Ustadın şeir dünyasını vərəqlədikcə, sazın, havacatın, dastançılığın Aşıq Kamandarının, aşıq şerinin bütün formalarında dəyərli şeirləri, o cümlədən Azərbaycan şeir dünyasının böyük ustadlarından Məmmədhüseyn Şəhriyarın "Heydər babaya salam" poeması uslubunda "Tərcümeyi-hal" və həmin üslubda ulu övliya Veysəl Qəraninin xatirəsinə yazdığı "Ağladım", "Kəlbəcər xatirələri", "Aşıqların 4-cü qurultayına" adlı poemaları, yazılı ədəbiyyat nümunələrinə xas şeirləri, publisistik yazıları aşığın ədəbi yaradıcılıqda da Xan Kamandar olmasını sübut edir.

Ustadın şeir yaradıcılığı kamillik nümunəsidir. Məna-məzmun dairəsi geniş əhatəli, cəlbedici, oxucu sevgisini qazanmağa qabildir. Kamandar sazının cilasından keçmiş şeirləri axarlıdır, asan əzbərlənən və yaddaşa həkk olunandır.

Aşığın çox sevdiyim, tavar sazına həsr etdiyi bir divanisindən söhbət açmaq istəyirəm. Bu divaninin məzmunu saz tariximizin elə dərin qatlarını geniş və əhatəli şəkildə tərənnüm edir ki, onu həcmcə yığcam bir poema kimi qiymətləndirməyə dəyər... Divaninin:

"Dədəm Qorqud avazısan, sən Adəmdən qalıbsan
Əsirlərin hər dərdini pərdə-pərdə çalıbsan" -

misralanı açıqlayaq. İlk baxışda misralar, bəlkə də bəsit görünə bilər. Bilirik ki, aşıq-ozan sənətinin banisi Dədə Qorqud olub. Bu mülahizəyə etirazımız yoxdur. Bəs Aşıq: -"sən Adəmdən qalıbsan"- kəlmələri ilə hansı fikri ifadə edir?..

Sənəti özünə peşə edənlərə aşıq deyirik. Bəzi ehtimallara görə aşıq "işıq" sözündən yaranıb. Bu ehtimal özünü heç cür doğrulda bilməz. Tufaranqalı Abbasdan tutmuş Dədə Ələsgərə qədər sənətin bütün ustadlarına öncə buta(aşiqlik), sonra, öz sevgisini sazla-sözlə ifadə etmək qabiliyyəti verilmişdir. Deməli aşıq "aşiq" sözünün qəliblənmiş şəklidir. Aşıq sənətinin mayası aşiqlik, sevgi, məhəbbət, eşqdir. Cənnətdə təklikdən qəm-qüssə çəkən Adəmi bu qüssədən xilas etmək üçün Allahın əmri ilə Cəbrail onu dərin yuxuya verib, sol qabırğasını çıxartdı. Həmin qabırğadan Həvvəni yaratdı. Adəm dərin yuxudan oyananda qarşısında bəyaz bədənli, incə əndamlı, uzun saçlı, mirvari dişli, gözəl bir yaradılışın ona baxıb, naz-qəmzə ilə gülümsədiyini gördü və ona aşiq oldu. Beləliklə aşiqlik Adəmdən qaldı.

İkinci misrada söhbət sazın pərdəsindən gedir. Sazı pərdəsiz çalmaq mükünsüzdür. Bu misranın məzmun-mündəricə dərinliyini saz tariximizin dərin qatlarında axtarmaq gərəkdir. Sənətin kamil ustadları deyiblər ki, sazın hər pərdəsi bir əsrin ərmağanıdır. Hər əsrdə sazın bir pərdəsi yaranıb, yarandığı əsrin tərəqqisini, tənəzzülünü, qayğısız-qəmsiz və dərdli-kədərli günərinin ifadəsini özündə cəmləşdirib. Kamandar məhz bu deyimə istinadən adı çəkilən misranı qələmə almış, gözəl ovqat bəxş edən bir misra yaratmışdır.

Hər kəsin vətəni doğulduğu evin astanasından başlayır. Körpə dünyaya ayaq açıb, doğulduğu evin astanasına qədəm basdığı gündən vətən məvhumu onunla qoşa böyüyür. Boy atıb, böyüdükcə geniş hüdüdları əhatə edir. Bu meydanda kamillik zirvəsini tutan böyük şəxsiyyətlər üçün vətən mövhumu hüdüd tanımır. Dünyanın hansı guşəsində adı ehtiramla anılırsa, həmin guşə vətəninin bir parçasına çevrilir...

Dünyaya ilk qədəmi Borçalının Kürüstü vadisindən başlanan Kamandar Əfəndi dahiyanə sənətinin qüdrəti ilə belə bir hüdüdsuzluğu qazanıbdır... Onun şeir yaradıcılığı təkcə doğulub boya-başa, kamilliyə çatdığı Borçalını vəsf etməklə qənaətlənmir, onun hududlarından çox-çox uzaqlqara - türkçülüyün qədəm qoyduğ hər yerə öz səsini çatdırır, o yerlərin xoşbəxt günlərinə fərəhlənir, kədərli, qayğılı anlarının qayğısını yaşayır.

*Pəhləvanlar, qəhrəmanlar yurdusan,*
*Doğmasan, əzizsən bizə, Borçalı.*
*Qeyrət qalasında qalib ordusan,*
*Birin cavab verər yüzə, Borçalı. -*

deyən ustad, ellərimizi-obalarımızı gəzə-gəzə, sazı-sözü, Davud ləhcəli avazı ilə məclisləri bəzəyə-bəzəyə məna-məzmun zənginliyi könüllər oxşayan çox sayda şeirləri ilə də könüllərdə özünə yer tapmışdır. Azərbaycanın, Gürcüstanda və Qərbi Azərbacanda yaşayan azərbaycanlıların yaşadıqları torpaqların müqəddəsliyini, dağlarının əzəmətini, təbiətinin, çəmən-çiçəklərinin gözəlliklərini sənətkarlıqla vəsf etmişdir. Ustad, "Sənə can demişəm" şeirində yazır:

*Sənə can demişəm, Azərbaycanım,*
*Dinim - imanımsan dinlər içində.*
*Harda dara düşsəm qaynayar qanım,*
*Ünüm sənə çatar ünlər içində...*

*...Aşıq Kamandarı hərdən yad elə,*
*Ən gözəl günlərin öndədir hələ,*
*Bakımla Təbrizim versin əl - ələ,*
*Min yaşa xoş aylar, günlər içində.*

Aşıq Kamandar istər ifaçılıq sənətində, istərsə şeir yaradıcılığında türkü, türkçülüyü yüksək tutan, ilham və məhəbbətlə tərənnüm edən sənətkarlardandır. Gərgin əməyinin bəhrəsi olan Kamandar məktəbi, ozan-aşıq sənətinin ayaq açdığı hər yerdə - ölkəmizdə, Cənubi Azərbaycanda və Türkiyənin Qars, Ərzurum bölgələrində yüksək dəyərini çoxdan qazanıbdır. Aşığın aşıqlıq sənəti də, şeir yaradıcılığı da Türkiyənin araşdırmaçı alimlərinin diqqət mərkəzindədir. Onun qələm yaradıcılığına yüksək dəyərin təzahürüdür ki, Türkiyə Təlim və Tərbiyə Kurulu başqan vəkili, Milli Eytim Şurasının baş katibi, araşdırmaçı-şair-aşıq Nazim İrfan Tanrıqulu əfəndi ilə divani, qoşma, gəraylı şeir formaları üstə diqqətəlayiq neçə deyişmələri mövcuddur...

Türkçülüyə dərin etimadını "Bir də Azərbaycanım" şeirində ustad belə tərrənnüm etmişdir:

*Ellərinə heyranam mən,*
*Dillərinə heyranam mən,*
*Çöllərinə heyranam mən,*
*Atatürküm, doğma qanım,*
*Bir də Azərbaycanım.*

*...Bir karvandı çəkim mənim,*
*Qəm - hicrandı yüküm mənim,*
*Sənsən əslim - kököm mənim.*
*A qeyrətli Oğuz babam,*
*Atatürküm, doğma qanım,*
*Bir də Azərbaycanım.*

Harda türkçülüyün ocağı yanıb, tüstüsü tüstülənib onun xoşbəxt çağlarından, firavan günlərindən müjdələr gətiribsə, Aşıq Kamandarın onbir telli sazı da, könüllər fəth edən avazı da, qiymətli şeirlər memarı qələmi də həmin müjdələrə köklənib, həmin müjdələri tərənnüm edib. Harda türkün acı günlərini eşidibsə, onun kədərini, qayğılarını öz kədəri, öz qayğısı kimi yaşayıb, yaradıcılığına hopdurub...

Ustad Şəhriyarın xatirəsinə həsr etdiyi şeirində cənublu qardaşlarımızın matəmli günlərində onlarla belə səsləşib:

*Şair Şəhriyarım köçdü dünyadan,*
*Eşidib hər yanda ellər ağladı.*
*Söz baharım buz bağladı bir anda,*
*Leysan nalə çəkdi, sellər ağladı.*

*...Kamandar can deyir ana Təbrizə,*
*İgid mətin gərək, hər dərdə dözə.*
*Toyda, bayramlarda verib üz - üzə,*
*Sazımda danışan tellər ağladı.*

Kamandar ömrünün son illəri, soydaşlarımızın doğma yurddan departatsiyası, 20 yanvar, Xocalı soyqırımı, Qarabağ işğalı, Gürcüstanda yaşayan soydaşlarımıza qarşı Qamsaxurdiya hakimiyyətinin amansız təzyiqləri dövrünü yaşamışdır. Aşıq bu amansız hadisələrə biganə qalmamışdır. Qələmin dili ilə xalqa tutulan divanlara, haqsız işgəncələrə, təzyiqlərə hər zaman dərin etirazını bildirmiş, onları törədənləri lənətləmişdir. Boş qalan yurd-yuvalar ustadın gözdağına dönmüşdü. Şahidi olduğu bu amansızlıqlara canyanğısı, ilhamının kədərli alovu ilə, qələmə aldığı şeirlərinin dili ilə cavab vermişdir. Xalqın igidlərini düşmənlərlə mübarizəyə səsləmişdir:

*Vətən beşiyində göz açan oğlan,*
*Namusdan, qeyrətdən söz açan oğlan,*
*Vətən çağrışından, a qaçan oğlan,*
*Qaçanda kim əziz tutacaq səni?*
*Bil ki, Vətən o gün atacaq səni...*

**Davamı kaspi.az saytında**

